# Kəlbəcərin "yaşıl işığ"ı

## Rayonun ərazisindəki su-elektrik stansiyalarının sırasına daha üçü əlavə olundu

**Kəlbəcərdə istifadəyə verilən üç yeni kiçik su-elektrik stansiyasının (KSES) açılışı ilə Qarabağ və Şərqi Zəngəzurda bu cür enerji obyektlərinin sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatdı. Həmin stansiyaların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi onların önəminə bir daha diqqət çəkir.**

Dövlətimizin başçısı bu günlərdə Kəlbəcər rayonunun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su-elektrik stansiyalarının da açılışını etdi. Bir gündə bu üç stansiyanın istifadəyə verilməsi bir daha göstərdi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji" zonasına çevrilməsi hədəfinə doğru inamlı addımlar atılır.

Kəlbəcərdə tikilən 8,6 meqavatlıq "Aşağı Vəng" və 8,8 meqavatlıq "Nadirxanlı" stansiyalarında il ərzində 48 milyon kilovat-saat elektrik enerjisinin istehsal edilməsi nəzərdə tutulur. Müasir avadanlıqlarla təchiz edilmiş stansiyalar ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya olunub. Burada istehsal olunan ekoloji təmiz "yaşıl enerji" ilə təxminən 25 min nəfər elektrik enerjisi ilə təmin ediləcək.

Stansiyaları su ilə təmin etmək üçün isə Lev çayının Tərtər çayına qovuşmasından sonra baş suqəbuledici, eyni zamanda Tutqu çayının Tərtər çayına qovuşan hissəsində ikinci suqəbuledici yaradılıb. Kaskad su-elektrik stansiyaları silsiləsinə daxil olan bu stansiyalar üçün çətin relyefdə ümumilikdə 9300 metr uzunluğunda derivasiya borusu çəkilib. Çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğularla təchiz olunan suqəbuledicilərdə bütün ekoloji normalara riayət edilib. Hər iki stansiyada quraşdırılmış hidroaqreqatlar zərərli maddələrin suya qarışmasının qarşısını almaqla yanaşı, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən suyu aşağı axarda yenidən çaya qaytarır.

"Aşağı Vəng" və "Nadirxanlı" stansiyalarında qənaət edilən təbii qazın həcmi 12,5 milyon kubmetr təşkil edəcək. Bununla da il ərzində 23 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

"Çaykənd" kiçik su-elektrik stansiyasının gücü isə 5 MVt-dır. Bu, "AzərEnerji" tərəfindən Kəlbəcərdə istismara verilən sayca on birinci "yaşıl enerji" obyektidir.

"Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur". 2020-ci il iyunun 25-də Mingəçevir şəhərində yenidən qurulmuş "Azərbaycan" İES-in açılış mərasimində Prezident İlham Əliyevin dediyi bu sözlər Qarabağda və Şərqi Zəngəzurda həmin istiqamətdə gedən işləri də xarakterizə edir. Burada istifadəyə verilən müasir elektrik stansiya və yarımstansiyalar bir çox digər sahələrin inkişafını təmin edir, nəticə etibarilə insanların doğma yurd-yuvalarına qayıtmasını tezləşdirir.

Budur, Kəlbəcərdə istifadəyə verilən "yaşıl enerji" obyektlərinin sayı 11-ə çatdı. İşğaldan azad edilmiş bütün ərazilər kimi, əsrarəngiz təbiəti ilə zəngin olan Kəlbəcər rayonunda da genişmiqyaslı abadlıq-quruculuq işləri davam edir. Artıq bu dağlar, meşələr yurdu uzun illərin ayrılığından sonra doğma övladlarını yenidən qoynuna alır. İndiyədək rayonun enerji təminatı sahəsində də xeyli iş görülüb. "Soyuqbulaq", "Çıraq-1", "Çıraq-2", "Kəlbəcər-1", "Qamışlı", "Meydan" və digər stansiyalar istifadəyə verilib. Bu da bir daha onu göstərir ki, Kəlbəcərin zəngin enerji ehtiyatları var.

Rayonun yeni KSES-i olan "Çaykənd" də bunu təsdiqləyir. Stansiya ölkənin ən böyük bolsulu çaylarından birinin - Tərtər çayının üzərində yeni yaradılmış baş suqəbuledicidən 8 min 500 metrlik derivasiya borusu ilə gələn su ilə təchiz edilir . Təxminən 7 min nəfəri ekoloji təmiz "yaşıl enerji" ilə təmin edəcək stansiyada "ətraf mühitə dost texnologiyalar" tətbiq olunur. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması ilə yanaşı, stansiyaya Bakıdan nəzarət etmək də mümkündür.

"Çaykənd"in enerjisistemə inteqrasiyası üçün 5 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti çəkilib. Stansiya ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya edilib. Burada il ərzində 15 milyon kilovat-saat elektrik enerjisinin istehsalı, bununla da 3,2 milyon kubmetr təbii qaza qənaət edilməsi və 6 min ton karbon qazının atmosferə atılmasının qarşısının alınması nəzərdə tutulur.

Bir sözlə, Kəlbəcərdə sistemli şəkildə tikilib istismar olunan stansiyalar artıq iqtisadiyyata, "yaşıl enerji"nin genişlənməsinə, ətraf mühitin qorunmasına öz töhfəsini verir. İndiyədək rayonun KSES-lərində 1,5 milyard kVts "yaşıl enerji" istehsal olunub, 335 milyon kubmetr qaza qənaət edilib, 620 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Su-elektrik stansiyaları azsulu dövrdə 80 MVt, bolsulu dövrdə isə 200 MVt-dan artıq gücdə gecəli-gündüzlü fasiləsiz olaraq "yaşıl enerji" istehsal edir.

Daha bir önəmli fakt odur ki, yeni stansiyalarda bir qrup Kəlbəcər sakini işlə təmin olunub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



Azərbaycan.- 2025.- 24 avqust (№ 178).- S.7.